Ədalət.- 2020.- 25 iyun.- S.5.

# HÜSEYNQULU SARABSKİ

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

Bir gün Hüseynə dedim: - Əbdürrəhim bəy Tiflisdən gəlib, gedək onun yanına.

Ərəblinski razı oldu, geyinib getdik "İslamiyyə" mehmanxanasına. Əbdürrəhim bəylə görüşəndən sonra o, bizi təbrik elədi:

- Uşaqlar, gözünüz aydın olsun, "Ağa Məhəmməd şah Qacar" əsərinin icazəsini almışam.

Ərəblinski: - Çox da icazə almısan. Oynamaq üçün gərək aktyor olsun, aktrisa olsun, teatr olsun, paltar olsun, quruluş olsun, məşq üçün yer olsun... necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa.

Əbdürrəhim bəy: - Hüseyn, mən səndən bunu gözləməzdim. Sən aktyorsan, zəhmət çəkib məşq edərsən, Ağa Məhəmmədi olduğu kimi oynarsan, xalq səni alqışlayanda hamısı yadından çıxar. Amma, Hüseyn, sənin canın üçün, Ağa Məhəmməd nə sənin rolundur. Səni qoymuşam qabağıma, Ağa Məhəmməd yazmışam.

Bu söz Ərəblinskiyə bərk toxundu:

***- Mən məgər belə çirkinəm ki, məni ona oxşadırsan? O tövr qaniçən cəllada! Dünyada adam qurtarmışdı məni oxşatmağa? - deyə papağı ilə ağacını götürüb acıq eləyib getdi.***

**Əbdürrəhim bəy dalınca; - Hüseyn! Hüseyn!-deyə çağırdı. Ərəblinski qulaq asmayıb getdi.-Canım, bu nə iş idi oldu, mən onun könlünü sındırmaq istəmirdim. Mən Hüseynin xətrini çox istəyirəm. Onun sınıb getməsi yaxşı olmadı,-deyə Əbdürrəhim bəy dilləndi. Dedim: - Eybi yoxdur, biz onun könlünü alarıq.**

İki gündən sonra bir quzu kəsib Əbdürrəhim bəyi, Ərəblinskini, Əbülfəti və yoldaşlardan bir neçəsini İçərişəhərdəki evimə qonaq çağırıb onları barışdırdım. Əbdürrəhim bəy: - Hüseyn, sən məndən nahaq incimisən, mən səni Ağa Məhəmməd şaha oxşatmıram, mən sənin talantını və aktyorluğunu gözümün qabağına gətirib onu yazmışam. Sən mənim əzizimsən. Mən yenə təkrar edirəm, o əsəri mən sənin üçün yazmışam.

**Ərəblinski gülə-gülə: - Eybi yoxdur, - dedi, - mənim də səndən bir xahişim var, sən allah əsər yazanda eləsini yaz ki, arvad rolu az olsun. Vallah bu aktrisa məsələsi mənim gözümün qabağında bir dağ kimi durub.**

**Əbdürrəhim bəy: - Hüseyn, səndən qabaq mən onu fikirləşmişəm. Odur ki, "Ağa Məhəmməd şah Qacar"da heç arvad rolu yoxdur.**

Bu söz Ərəblinskiyə çox xoş gəlib Əbdürrəhim bəyi qucaqlayıb öpdü və onun sağlığına içdik. Bu məsələdən sonra qət elədik ki, uşaqları yığıb teatr mövsümü üçün "Ağa Məhəmməd şah"ı hazırlayaq. Bu zaman



Hüseynqulu Sarabski

Ələbbas Rzayev də suflyorluğa təyin olundu.

...Əbülfət, mən, Ərəblinski, Əbdürrəhim bəy dəniz kənarında gəzirdik, bu aralıq Cahangir Zeynalov bizə rast gəldi. O, Əbdürrəhim bəylə görüşdükdən sonra soruşdu: -De görüm, əlidolu gəlmisən? Bu sənin öz sözündür ki, "Dağılan tifaq" əsərində yazmısan.

Əbdürrəhim bəy: -Əlidolu gəlmişəm. Əsərə icazə verdilər. Kəblə Cahangir, bu barədə gərək sənin də köməyin olsun, necə bir köhnə artist.

**Cahangir: -Balam, bunlar heç məni saymırlar ki...**

**Ərəblinski: -Kəlbəyi, biz elə güman edirdik, sən gəlib bizimlə işləməzsən. Hərgah, doğrudan da, belə arzun varsa, buyur, həmişə gözümüz üstündə yerin var.**

**Cahangir: -Sağ ol, ay Hüseyn, dil-ağız üçün var olasan.**

**Əbülfət: - Biz bu yaxında bir yerə yığılacağıq, Kəlbəyi, sizə də xəbər edərik.**

Ayrıldıqdan sonra mən, Əbülfət və Ərəblinski belə məsləhət gördük ki, Kəblə Cahangir bizə və səhnəmizə yararlı adamdır. "Ağa Məhəmməd şah Qacar" əsərinə paltar lazımdır.

Onun pulu çoxdur. Onu yoldaşlığa qəbul edib xəzinədarlığı onun boynuna qoyarıq. O bizə lazım olan paltarları alar.

Bir neçə gündən sonra uşaqları bizə yığıb iclas etdik və Kəblə Cahangiri dəstəmizə qəbul etməklə bərabər, xəzinədarlığı da onun boynuna qoyduq. Və yavaş-yavaş "Ağa Məhəmməd şah Qacar" əsərinin məşqinə başladıq. 1906-cı il teatr mövsümü açıldı. Səhnələri bəzəyib tamaşalar göstərməyə başladılar. Biz də qəzetdə "Ağa Məhəmməd şah Qacar" əsərinin hazırlanmasını elan etdik.

"Nicat" cəmiyyəti də truppa təşkil etmək fikrində idi. "Nicat"ın gecə-gündüz fikri o idi ki, bizim truppamızı dağıdıb artistləri bir-bir aparsın "Nicat"a. Mən, Əbülfət və Ərəblinski bunu yaxşı bilirdik. Mehdi bəy Hacıbababəyov və İmran Qasımov "Nicatı"ın fəal üzvlərindən idilər. Bunlar da gəldilər, bizim truppaya daxil oldular. Eşitdik ki, Süleyman bəy Axundov (Sani) "Gaveyi-ahəngər" adlı əsəri dilimizə tərcümə edir. Mehdi bəy Hacıbababəyov və İmran Qasımovun yanında belə qərara gəldik ki, gedək Süleyman bəyin yanına, "Gavə"ni ondan istəyək. Bunlar bizdən qabaq gedib "Nicat"da deyiblər, nə durmusunuz, gedək Süleyman bəydən əsəri alaq, yoxsa bunlar bizdən qabaq alıb oynarlar". Biz isə Əbülfət Vəlini truppa tərəfindən vəkil elədik ki, gedib Süleyman bəydən "Gavə" əsərinin bizə verilməsini xahiş etsin. Vəli Süleyman bəydən əsəri istədikdə Süleyman bəy: -Siz "Nicat"da işləmirsinizmi? - deyə soruşub.

**Vəli: -Xeyr-cavabını verir. Süleyman bəy: - Çox təssüf, "Nicat"dan əsər üçün gəlmişdilər. Soruşdum oynayanlar kim olacaq? Mənə cavab verdilər ki, sizin truppa oynayacaq.**

**Vəli: -Siz də əsəri verdiniz?**



Hüseyn Ərəblinski

**Süleyman bəy: -Verməmişəm, ancaq bilmək istəyirdim kimlər oynayacaq.**

**Vəli: -İndi məni sizin yanınıza əsər üçün göndəriblər, nə deyirsiniz?**

**Süleyman bəy: -Hə deyəcəyəm. Truppa harda, - əsər də orada! Al bu kitabı apar, məşq zamanı mənə də xəbər elərsiniz gələrəm.**

Əbülfət Vəli gəlib əhvalatı bizə nəql elədi. Biz də heç dinmədən "Ağa Məhəmməd şah Qacar"ı hazırlayırdıq. Biz Kəblə Cahangirdən 600 manat borc eləyib Ağa Məhəmməd şaha paltar tikdirdik. Vaxt çatdı, teatr tutduq, dörd cümə günü, hər gecəsi 150 manatdan. "Nicat" da bizdən xəbərsiz ikinci ayın cümə günlərini doqovor bağlayıb götürərlər, məqsədləri də odur ki, daha bizim tamaşa göstərməyə yerimiz olmasın. Əlqərəz, "Ağa Məhəmməd şah Qacar"ı oynadıq. ("Ağaməhəmməd şah Qacar"ın ilk tamaşası 3 dekabr 1907-ci ildə olmuşdur - M.Ç.) Amma quruluşu cəhətdən nə qədər çətinlik çəkdiyimizi yazmıram. Yeri gəlmişkən deyim ki, keçmişdə teatrlarda şərq dekorları və



Əbdürrəhim bəy Haqverdiyev

əlbəsələri yox idi. Əli papağını Vəli başına, Vəli papağını Əli başına qoyurduq. Evlərdən xalça-palaz, paltar, qılınc-qalxan yığıb bir tövr ilə səhnəni şərq üslubuna sala bilmişdik. Məktəb uşaqlarından qoşun hazır eləmişdik. Biçarə Ərəblinski bir yandan özü qrim edir, səhnəni nizama salır, bir yandan da aktyorların qrimini edirdi. Əbülfətlə mənim başım qarışmışdı aktyorları geyindirməyə, səhnənin nizamını onlara göstərməyə, aldığımız və tikdirdiyimiz paltarların qaravulunu çəkməyə. Aktyorların biri deyirdi papağım yoxdur, biri deyirdi əbam... Bütün truppanın zəhməti biz üç nəfərin boynunda idi. Nə isə, iştirak edənləri yebəyer edəndən sonra özümüz qrim edib, tamaşanı başladıq.

**Mən Hacı İbrahim xanın, Əbülfət Mürtəzaqulu xanın, Cahangir Mirzə Cəfər xanın, Ərəblinski Ağa Məhəmməd şahın rolunu ifa edirdi. Yorğunluq və çətin şəraitə baxmayaraq Ərəblinski səhnəyə çıxdıqda öz rolunu o qədər məharətlə ifa edirdi ki, camaat Ərəblinskini yaddan çıxardıb Ağa Məhəmməd şah Qacarın özünə baxdıqlarını güman edirdilər. O günkü tamaşamızda satılmamış bir bilet də qalmamışdı. Birinci tamaşanın mədaxili teatr tamaşası üçün aldığımız paltarların borcuna getdi. İkinci tamaşamızın mədaxilində bizim hərəmizə 15, Ərəblinskinin zəhməti böyük olduğu üçün ona 40 manat düşdü.**

**H.Sarabski. "Köhnə Bakı", Bakı, "Yazıçı", 1982, səh. 75-79**